ARTİKL 54

# E-XİDMƏT
# BƏLƏDÇİSİ

*İcmalar üçün elekton hökumət alətləri*



BAKI - 2024

# E-XİDMƏT
# BƏLƏDÇİSİ

*İcmalar üçün elekton hökumət alətləri*



BAKI - 2024

# Giriş

Rəqəmsal texnologiyaların ilbəil artması ilə elektron hökumət xidmətləri vətəndaşların və icmaların dövlət qurumları ilə əlaqəsinin ayrılmaz hissəsinə çevirilir.“Elektron hökumət” portalı vasitəsilə bürokratik proseslərin sadələşdirilməsinə və dövlət xidmətlərinin hər bir vətəndaş üçün əlçatan olmasına yönəlir. Bu xidmətlərin ilbəil sayının və çeşidliyinin artmasına rəğmən, imkanlar barədə məlumatlılıq aşağı səviyyədə qalmağa davam edir.

Artikl 54 İctimai Birliyi tərəfindən tərtib edilmiş bu bələdçi vətəndaşlara və icmalara e-hökumət sistemini daha asanlıqla istifadə etməkdə kömək etmək üçün hazırlamışdır. İctimai iştirakçılıq missiyamızdan irəli gələrək, fəaliyyət dövrümüzdə əməkdaşlıq etdiyimiz icmaların bürokratik əngəllərlə rastlaşmasına şahid olmuşuq. Bu cür maneələrin öhdəsindən gəlməyə elektron hökumət xidmətləri yardımçı ola bilər.

Rəqəmsal platformalardan istifadə, xüsusən də onlayn xidmətlərlə tanış olmayan və ya texnologiyaya çıxışı olmayanlar üçün çətin görünə bilər. Buna görə də bizim bu sənədlə reallaşdırmaq istədiyimiz icmalar üçün elektron hökumətdən istifadəyə dair aydın və praktiki bələdçi hazırlamaqdır. Elektron hökumət alətlərindən istifadənin icmalarda iştirakçılıq ənənələrinin artmasına və genişlənməsinə faydalı ola biləcəyinin qənaətindəyik.

Bu alətləri tətbiq etməklə siz nəinki vaxta və resurslara qənaət edəcəksiniz, həm də daha səmərəli, hesabatlı və şəffaf hökumətə töhfə verəcəksiniz. Elektron hökumət xidmətləri bürokratiyanı azaltmaq, korrupsiyanı minimuma endirmək və əhalinin dövlət qurumlarına inamını artırmaq üçün nəzərdə tutulub. Bu bələdçi vasitəsilə biz vətəndaşlara və icmalara bu xidmətlərdən tam istifadə etmək üçün imkanlar təqdim etməyi, hər kəsin onların təklif etdiyi rahatlıq, şəffaflıq və iştirakçılıqdan faydalana bilməsini təmin etməyi hədəfləyirik.

# Mygov.az portalı və elektron arayışların əldə edilməsi

*Arayış və digər sənədləri elektron formada haradan əldə etmək olar?*

Mygov.az portalı və elektron arayışların əldə edilməsi
Arayış və digər sənədləri elektron formada haradan əldə etmək olar?
Azərbaycanda, xüsusilə kənd və rayonlarda yaşayan vətəndaşlar üçün dövlət qurumları ilə qarşılıqlı münasibətlərdə ən çox rast gəlinən çətinliklərdən biri sənəd və arayışların alınması prosesidir. Uzaq kəndlərdən rayon və şəhər mərkəzlərinə olan məsafə, uzun növbələr və dövlət qurumlarının həmişə əlçatan olmaması vətəndaşları yorur və onların vaxtını alır. İnfrastruktur və bürokratik maneələr səbəbindən yaranan bu cür çətinliklər insanların gündəlik həyatını daha da mürəkkəbləşdirir. Belə hallarda elektron hökumət alətləri, xüsusən Mygov.az portalı və digər rəqəmsal platformalar vətəndaşlara böyük rahatlıq gətirə və bu çətinliklərin həllində mühüm rol oynaya bilər.
Mygov.az elektron hökumət portalı və bəzi xidmətlər:




*Portaldan hansı elektron sənədləri əldə etmək mümkündür?*

Elektron hökumət sistemləri dövlət xidmətlərinə çıxışı asanlaşdırmaqla vətəndaşların vaxt və enerjisini qənaət etməyə kömək edir. Məsələn, əgər “ailə tərkibi haqqında” arayış almaq lazımdırsa, artıq uzun sıralarda gözləmək və ya vaxt sərf etməyə ehtiyac yoxdur. Mygov.az portalı vasitəsilə bu sənədi rahatlıqla əldə etmək mümkündür. Bu portal vətəndaşların dövlət qurumlarına getmədən elektron şəkildə arayış və sənədlərini əldə etmələrinə imkan verir.

Ən çox rast gəlinən problemlərdən biri də yaşayış yerinə dair arayışın alınmasıdır. Əvvəllər bu arayışı almaq üçün "JEK"-lərdə (Mənzil Kommunal-Təsərrüfat İstehsalat Birliyi) və ya icra hakimiyyəti nümayəndəliklərində uzun-uzadı gözləmək lazım gəlirdi. Ancaq indi bu problemi Mygov.az portalı vasitəsilə həll etmək mümkündür.
Eyni zamanda iş yeri barədə, həmçinin əmək və maliyyə, səhiyyə, məcburi köçkün statusu haqqında və digər bir sıra elektron arayışları Mygov.az portalından əldə etmək mümkündür.

Mygov.az vasitəsilə əldə edilə bilər:






*Elektron arayışların alınması proseduru necədir?*

Elektron arayışları əldə etmək üçün aşağıda göstərilən şəkildəki giriş üsullarından hər hansı birini istifadə etməklə elektron hökumət portalına daxil olmaq lazımdır.




Ardınca axtarış bölməsində “Elektron arayışlar” yazaraq təqdim olunan bütün elektron arayışları görmək və yükləmək mümkündür.



*Alınan elektron arayışların həqiqiliyini necə yoxlamaq olar?*

Mygov.az portalında axtarış hissəsinə “Elektron arayışın yoxlanması” qeyd edərək açılan pəncərədə arayışın nömrəsini yazmaqla həmin sənədin doğruluğunu yoxlamaq mümkündür.




Həmçinin, mygov.az portalı və portaldakı müxtəlif xidmətlər haqqında ətraflı məlumat əldə etmək üçün aşağıdakı linkdə yerləşdirilmiş videonu izləyə bilərsiniz:

*https://www.instagram.com/icma.akademiyasi/reel/C-M-pMFtEHO/*

# Elektron Hökumət: Vətəndaş-Dövlət münasibətlərinin rəqəmsal forması

*E-Hökumət nədir?*

Elektron hökumət dövlət xidmətlərinin və vətəndaş-dövlət orqanı münasibətlərinin rəqəmsal mühitə daşınmasını təmin edən müasir idarəetmə modelidir. Bu sistem vətəndaşların dövlət qurumlarının təqdim etdiyi müxtəlif xidmətlərə onlayn şəkildə asanlıqla çıxış əldə etməsinə imkan verir. Elektron hökumət dövlət idarəçiliyinin optimallaşdırılmasını, şəffaflıq və səmərəliliyin artırılmasını təmin edərək vətəndaşların dövlətlə olan əlaqələrini daha çevik və əlçatan edir. Bu model, eyni zamanda dövlət orqanları ilə vətəndaşlar arasında qarşılıqlı münasibətləri daha interaktiv hala gətirir, hər iki tərəfin maraqlarını daha səmərəli şəkildə təmin edir.

*E-gov.az platforması:*



*E-hökumət xidmətlərindən necə istifadə etmək olar?*

Vətəndaşlar müxtəlif dövlət xidmətlərinə aşağıdakı fotoda qeyd olunan giriş üsullarından hər hansı biri vasitəsilə daxil ola bilərlər. Bu giriş nöqtələri fərqli dövlət qurumlarının təqdim etdiyi xidmətlərə vahid bir platformadan çıxış imkanı yaradır. Vətəndaşlar bir dəfə “Digital Login” vasitələrindən hər hansı biri ilə qeydiyyatdan keçərək müxtəlif dövlət xidmətlərinə asanlıqla və təhlükəsiz şəkildə daxil ola bilərlər.




*E-hökumət xidmətlərindən necə istifadə etmək olar?*

Vətəndaşlar müxtəlif dövlət xidmətlərinə aşağıdakı fotoda qeyd olunan giriş üsullarından hər hansı biri vasitəsilə daxil ola bilərlər. Bu giriş nöqtələri fərqli dövlət qurumlarının təqdim etdiyi xidmətlərə vahid bir platformadan çıxış imkanı yaradır. Vətəndaşlar bir dəfə “Digital Login” vasitələrindən hər hansı biri ilə qeydiyyatdan keçərək müxtəlif dövlət xidmətlərinə asanlıqla və təhlükəsiz şəkildə daxil ola bilərlər.

`

*Mygov.az platforması və vətəndaşların istifadə edə biləcəyi bəzi xidmətlər:*



*Elektron Hökumətin faydaları*

Elektron hökumət platformaları hər bir vətəndaşın yaşadığı bölgədə dövlət qurumları ilə əlaqə yaratmasını sadələşdirir. Bu sistem müxtəlif ictimai xidmətlərdən daha sürətli və effektiv şəkildə yararlanma imkanı təqdim edir, dövlət xidmətlərini daha geniş təbəqələrə çatdırır. Həmçinin, elektron hökumət yerli icma qrupları və vətəndaşların dövlət xidmətlərindən faydalanmasını asanlaşdırmaqla yanaşı, onların ictimai vəkillik kampaniyalarında da mühüm rol oynayır. Məsələn, lokal problemlərin həlli üçün icma üzvləri elektron hökumət vasitəsilə müraciətlərini göndərərək bu problemləri dövlət səviyyəsində daha geniş müzakirəyə çıxara və həll yolları tapmaq üçün dövlət qurumları ilə birbaşa əlaqə saxlaya bilərlər. Bu, vətəndaşların iştirakçılığını artırır və onların problemlərinin həllinə daha sürətli şəkildə nail olmağa kömək edir.

Elektron hökumət alətlərindən istifadənin faydaları haqqında daha geniş məlumat əldə etmək üçün aşağıdakı linkdə yerləşdirilmiş videonu izləyə bilərsiniz.

*https://www.instagram.com/reel/C9kLdsdNtEt/*

## Rəqəmsal İcra Hakimiyyəti: Yerli xidmətlərə elektron çıxış

*Rəqəmsal İcra Hakimiyyəti nədir?*

"Rəqəmsal İcra Hakimiyyəti" portalı yerli icra hakimiyyətlərinin təqdim etdiyi xidmətlərə çıxışı asanlaşdırmaq məqsədilə yaradılmış bir platformadır. Bu portal vətəndaşların və yerli icmaların icra hakimiyyətləri ilə olan əlaqələrini daha şəffaf, səmərəli və interaktiv bir şəkildə təşkil edir. "Rəqəmsal İcra Hakimiyyəti" vasitəsilə vətəndaşlar müxtəlif dövlət xidmətlərinə çıxış əldə edə, müraciətlər göndərə və icra hakimiyyətləri ilə görüşlər təşkil edə bilərlər. Bu platforma yerli səviyyədə xidmətlərin daha əlçatan və istifadəyə yararlı olmasını təmin edir.

*RİH portalına aşağıdakı giriş üsullarından hər hansı birini istifadə etməklə daxil olmaq mümkündür:*



*İcma iştirakının gücləndirilməsində Rəqəmsal İcra Hakimiyyətindən necə yararlana bilərik?*

İcma üzvləri yaşadıqları şəhər, rayon və ya kənddə hər hansı ictimai problemin həlli və ya müəyyən təklifin irəli sürülməsi ilə bağlı kampaniya aparmaq istəyirlərsə, RİH portalından faydalana bilərlər. Bu portal icmaların və vətəndaşların dövlət qurumları ilə olan münasibətlərini daha şəffaf və interaktiv hala gətirir. Məsələn, əgər məqsəd qanunsuz zibil poliqonunun aradan qaldırılması və ya yararsız vəziyyətdə olan yolun təmir olunmasıdırsa, bu müraciəti portala daxil olaraq icra hakimiyyətinə göndərmək mümkündür. "E-iştirakçılıq" bölməsi vasitəsilə vətəndaşlar öz müraciətlərini formalaşdırıb göndərə bilərlər. Portal həmçinin bu müraciətlərin səsverməyə çıxarılmasını və digər vətəndaşların dəstəyini ifadə etməsini təmin edir.



"E-iştirakçılıq" bölməsindən edilən müraciət 30 gün ərzində portalda aktiv qalır. Bu müddət ərzində icma üzvləri müraciəti digər vətəndaşlarla paylaşaraq daha çox dəstək toplaya bilərlər. Bu proses yerli icmaların dövlət orqanları ilə qarşılıqlı əlaqəsini asanlaşdırır və onların səsinin daha tez və geniş şəkildə eşidilməsinə şərait yaradır. Belə ki, icmaları narahat edən problemlər - yaşıllıq zonalarının artırılması, məktəblərin inkişafı, su təminatı və digər ictimai xidmətlər kimi məsələlərlə bağlı müraciətlər də portal vasitəsilə müvafiq icra hakimiyyətlərinə elektron formada göndərilə bilər. Bu müraciətlər dövlət orqanlarına çatdırılır və onların izlənməsi asanlaşır, nəticədə icmalar öz problemlərinin həllini daha effektiv şəkildə izləmək və qiymətləndirmək imkanına malik olurlar.



*Vətəndaş qəbulu: onlayn və yerində görüşlər*

RİH portalı vasitəsilə vətəndaşlar “Vətəndaş qəbulu” bölməsi vasitəsilə yerli icra hakimiyyətləri ilə onlayn və ya yerində görüşlər təşkil etmək üçün müraciət edə bilərlər. Bu xüsusiyyət rəsmi görüşlər üçün icra hakimiyyətləri ilə əlaqə qurmaq istəyən vətəndaşlar və icma qrupları üçün əlverişli bir vasitədir. Müraciət təsdiqləndikdən sonra vətəndaşlar təyin edilmiş vaxtda görüşə qatılaraq problemlərini müzakirə edə bilərlər.




*Xidmətlər*

Rayon icra hakimiyyətləri tərəfindən təqdim edilən xidmətlər haqqında ətraflı məlumat “Rəqəmsal İcra Hakimiyyəti” portalının “Xidmətlər” bölməsində yerləşdirilib. Bu bölmədə hər bir xidmət haqqında məlumat, xidmətin həyata keçirildiyi qurum, tələb olunan sənədlər, inzibati prosedurlar və mübahisələrin məhkəməyə qədər və ya məhkəmədən kənar həlli imkanları kimi məsələləri əhatə edir. Bu məlumatlar vətəndaşların dövlət xidmətlərindən daha məlumatlı olmasını və effektiv şəkildə faydalanmasını təmin edir.




Həmçinin RİH portalı və orada olan elektron xidmətlər barədə daha ətraflı məlumat üçün aşağıdakı videonu izləyə bilərsiniz.

*https://www.instagram.com/icma.akademiyasi/reel/C-19p8OJwsH/*

# Tibbi xidmətlərə və sosial təminat sisteminə elektron çıxış

*Tibbi sənədlərə və müayinələrə elektron formada necə çıxış əldə edə bilərik?*

Elektron hökumətin gətirdiyi əsas üstünlüklərdən biri vətəndaşların heç bir yerə getmədən müayinə nəticələri və tibbi sənədlərlə tanış ola bilməsidir. Bu sistem tibbi xidmətlərdən yararlanan insanların müayinələrinin nəticələrini və tibbi məlumatlarını onlayn şəkildə izləməsinə imkan verir.




*İcbari Tibbi Sığorta portalında hansı xidmətlərdən istifadə etmək mümkündür?*
Portalda olan bəzi xidmətlər bunlardır:

- *İcbari tibbi sığorta haqqının hesablanması*
- *Tibb müəssisələrinə edilən müraciətləri izləmək*
- *Müayinələrin nəticələrinə baxmaq*
- *Tibbi sənədlərə çıxış əldə etmək*
- *Sığorta ilə təmin olunan tibbi xidmətlərin növlərini öyrənmək*

Bu portal qeyd olunan xidmətlərdən yararlanan vətəndaşlara vaxt itirmədən və rahat şəkildə öz tibbi məlumatlarına çıxış imkanı yaradır, tibbi prosesləri izləmək və nəticələrindən xəbərdar olmaq üçün asan vasitələr təqdim edir.

*Sosial təminat xidmətlərindən elektron formada necə istifadə etmək olur?*

Sosial təminat məsələlərində tez-tez qarşılaşılan çətinliklərdən biri də bürokratik maneələrdir. Uzun müddət sosial müavinət, pensiya və digər sosial xidmətlər üçün müraciətlərin tamamlanmasını gözləmək və çoxsaylı sənədləri toplamaq insanlarda müəyyən narazılıq yaradır. E-sosial portalı bu problemləri aradan qaldıraraq sosial təminatla bağlı xidmətlərdən istifadəni asanlaşdırır. Portal vasitəsilə vətəndaşlar sosial təminatla bağlı xidmətlərə elektron formada müraciət edə və müraciətlərinin vəziyyətini izləyə bilərlər.

Portal vasitəsilə vətəndaşlar əmək müqaviləsi bildirişləri, pensiya təminatı, müavinət, ərizə və müraciətlər, ünvanlı sosial yardım, fərdi kapital, avtomobil və mənzil növbəsi və s. haqqında fərdi hesaba yerləşdirilən məlumatları görə bilərlər.

E-sosial portalının təqdim etdiyi bəzi xidmətlər bunlardır:

- *Ünvanlı dövlət sosial yardımı üçün müraciət etmək*
- *İşsiz və ya işaxtaran kimi qeydiyyata alınmaq*
- *Özünüməşğulluq proqramlarına müraciət etmək*



E-sosial portalında yaradılan "Əks əlaqə" funksiyası vasitəsilə vətəndaşlar hər hansı bir sahədə olan problemi və ya şikayəti bildirə bilərlər. Bu funksiya sayəsində vətəndaşlar fiziki olaraq dövlət orqanına getmədən sosial məsələlərlə bağlı müraciətlərini birbaşa formada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə çatdıra bilərlər .




Elektron hökumət xidmətlərindən istifadə etməklə vətəndaşlar həm tibbi xidmətlərdən, həm də sosial yardımlarından asanlıqla faydalana bilərlər. Bu, onların gündəlik həyatını asanlaşdırır və dövlət xidmətlərinə çıxışı daha əlçatan edir.

E-sosial.az və İcbari Tibbi Sığorta portallarında olan xidmətlərdən yararlanmaq üçün aşağıdakı digital giriş üsullarından hər hansı birini istifadə etməklə elektron hökumət portalına daxil olmaq lazımdır.




Həmçinin, E-sosial.az və İcbari Tibbi Sığorta portalları haqqında daha ətraflı məlumat üçün aşağıdakı videonu izləyə bilərsiniz.

*https://www.instagram.com/reel/C--Y-gFJCf5/?igsh=MWZiODBnbmowdXZrbA==*

# E-Satınalma və Açıq Məlumatlar Portalları: Şəffaf hökumət fəaliyyəti üçün elektron alətlər

Elektron hökumətin əsas məqsədlərindən biri dövlət fəaliyyətinin açıq, şəffaf və hesabatlı olmasını təmin etməkdir. Vətəndaşlara hökumət fəaliyyətini izləmək və nəzarət etmək üçün müxtəlif elektron resurslar təqdim olunur. Bu resurslar arasında "E-satınalma" platforması və "Açıq Məlumatlar Portalı" xüsusi yer tutur. Gəlin, bu iki platformanın imkanlarını daha dərindən araşdıraq.

*E-Satınalma Platforması: tenderlər və müqavilələrin şəffaflığı*

"E-satınalma" platforması vasitəsilə dövlət orqanlarının apardığı satınalma proseslərini izləmək mümkündür. Bu platformada "Müsabiqə elanları" bölməsindən davam edən və ya ləğv edilmiş tenderləri, həmçinin satınalma planlarını və bağlanmış müqavilələri izləmək mümkündür. Vətəndaşlar dövlətin hansı malları və xidmətləri kimlərdən və hansı məbləğlə aldığı barədə məlumat əldə edə bilərlər. Məsələn, irsi qan xəstəlikləri, xüsusilə hemofiliyanın müalicəsi üçün dövlətin nə qədər vəsait ayırdığına dair məlumatlar da bu platformada yer ala bilər. Bu şəffaflıq ictimai nəzarətin gücləndirilməsi və dövlət vəsaitlərinin səmərəli istifadə olunmasının təmin edilməsi baxımından çox önəmlidir.

**Müsabiqə elanları**

Hamısı | Açıq tender | Kotirovka sorğusu | Açıq tender (>3 milyon) | Təkliflər sorğusu

Davam edən | Satınalma predmeti | Ətraflı axtarış

| | Satınalan təşkilatın adı | Satınalma predmeti | Dərc edilmə tarixi | Bitmə tarixi | | |
|---|---|---|---|---|---|---|
| 1 | "MƏRKƏZİ NEFTÇİLƏR XƏSTƏXANASI" PUBLİK HÜQUQİ ŞƏXSİ | Elektrik enerji axınının təhlükəsizliyinin təmin edilməsi üçün görüləcək xidmətlərin satın alınması | 12.09.2024 13:40 | 24.09.2024 12:00 | Ətraflı | |
| 2 | "DAŞINMAZ ƏMLAKIN DÖVLƏT KADASTRI VƏ REYESTRİ" PUBLİK HÜQUQİ ŞƏXSİNİN 1 SAYLI BAKI ƏRAZİ İDARƏSİ | Kağız A4 mallarının satınalınması | 12.09.2024 13:24 | 04.10.2024 10:00 | Ətraflı | |
| 3 | AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ YANINDA DÖVLƏT VERGİ XİDMƏTİ | Avtomatlaşdırılmış inventar təhlili aləti (AİTA) proqram təminatına texniki dəstəyin göstərilməsi və lisenziyanın alınması | 12.09.2024 13:05 | 10.10.2024 11:00 | Ətraflı | |
| 4 | ZƏRDAB SU MELİORASİYA SİSTEMLƏRİNİN İSTİSMARI İDARƏSİ | Məlikumudlu kanalının beton üzlüyə alınması və üzərindəki hidrotexnik qurğuların təmiri((Pk 19+00 pk 28+50, L=0.95km) | 12.09.2024 11:11 | 19.09.2024 17:00 | Ətraflı | |

*Açıq Məlumatlar Portalı*

“Açıq Məlumatlar Portalı” isə dövlət orqanlarının təqdim etdiyi məlumatları vətəndaşlarla bölüşmək üçün yaradılmışdır. Bu portal vasitəsilə müxtəlif kateqoriyalar üzrə məlumatları izləmək və analiz etmək mümkündür. İstər sosial, istər iqtisadi, istərsə də digər sahələri əhatə edənt məlumatlar burada toplanır. Lakin təəssüf ki, hazırda portalda bir sıra kateqoriyadan olan məlumatlar natamam formada əlavə olunmuş və ya ümumən əlavə olunmamışdır. Məlumatların tam və açıq şəkildə ictimaiyyətə təqdim olunması hökumətin fəaliyyətinin şəffaflığını daha da artıra və ictimai nəzarəti gücləndirə bilər.

Portalda müxtəlif kateqoriyalar üzrə açıq məlumatları izləmək mümkündür:



*İctimai nəzarət üçün imkanlar*

Bu platformalardan istifadə etməklə hökumətin fəaliyyətinə daha dərindən nəzarət etmək mümkündür. Məlumatların açıq, şəffaf və əlçatan olması dövlət vəsaitlərinin istifadəsinin səmərəliliyini qiymətləndirmək və hökumətin fəaliyyətinin keyfiyyətini ölçmək üçün əsas vasitələrdəndir. Sadəcə olaraq bu platformaların təkmilləşdirilməsi və məlumatların daha geniş şəkildə ictimaiyyətlə bölüşülməsi lazımdır.

Hər iki portalda mövcud olan "Müraciətlər" bölməsi vasitəsilə təklif və ya şikayətləri bildirmək mümkündür.


Ərizə, şikayət, təklif

Şəxsiyyət vəsiqəsinin seriya nömrəsi *

Seriya nömrəsini daxil edin

Şəxsiyyət vəsiqəsinin FİN kodu *

Fin kodu daxil edin

Yoxla

Elektron poçt *

Telefon nömrəsi *

VÖEN

Müraciətin növü *

Müraciətin növünü seçin

Müraciətin mətni *

# E-XİDMƏT
# BƏLƏDÇİSİ

*İcmalar üçün elekton hökumət alətləri*

+994 55 205 05 29
artikl54.info@gmail.com

artikl54
article54PU
Artikl54
Article54PU